# Müstəqil Vətənin memarı

*"Ölkə parçalanırdı,*
*Şimal, Cənub,*
*Şərq və Qərb.*
*Bir yandan talanırdı,*
*Bir yandan da*
*qanlı hərb!.."*

Müəllifi olduğum "Müstəqil Vətənin memarı" poemasından nümunə gətirdiyim bu bir bənd şeir parçası 1990-cı illərin respublikamızdakı ictimai-siyasi və geopolitik mənzərəsini canlandıran bədii etiketdir.

Hər birimizin gözləri önündə cərəyan edən və dağıdıcılıq funksiyası ilə yüklənən həmin dövrün tarixi gerçəkliyi keçmiş Sovet İttifaqının öz relsindən çıxmağa doğru irəlilədiyi bir zamanda ona bağlı olan respublikalarda xaos yaranmışdı. Üstəgəl, bəzi respublikalarda milli münaqişələr həddini aşmaq dərəcəsinə çatmışdı.

Azərbaycanda isə vəziyyət daha da acınacaqlı idi. Həm yaranmış vəziyyətin respublikamızda təlatüm yaratdığı siyasi və ictimai gərginlik, həm də milli münaqişənin məqsədli şəkildə "yuxarıdan" (Moskva) ifrat həddə çatdırılması, üstəgəl, Sovet İttifaqının başında dayanan M.S.Qorbaçovun xalqımıza qarşı göstərdiyi mənfi münasibət, bununla yanaşı, ermənilərə verdiyi açıq dəstək, bu dəstək hüdudunda Qorbaçovun özü tərəfindən mövcud münaqişənin qızışdırılması və bizi təkləmək mövqeyi açıq-aşkar nəzərə çarpırdı. Eyni zamanda, sözügedən dövlətə xas olan gizli basqıların qərəzli məkri ilə yoğrulmuş hikkəsinin üzərimizə çökdürülməsi, səsimizin heç yerdə eşidilməməsi məqsədilə ətrafımızda yaradılan informasiya blokadasının qurulması və s. bu kimi digər mənfur əməllərin tüğyan həddinə çatdırıldığı bir zamanda ulu öndər Heydər Əliyevin səhhətinin gərgin vəziyyətində, qəhrəmancasına ölüm-dirim mübarizəsinə qalxması, bu yolda dönməz fəaliyyəti ilə apardığı polad əzmli mübarizəsi bizə qarşı törədilən bütün mənfur əməlləri az zaman içində yox etdi. Çünki Heydər Əliyev xalqımıza qarşı aparılan kirli oyunlara, konkret olaraq 20 Yanvar faciəsinə, hələ Moskvada ikən qorxmadan, çəkinmədən, özünü təhlükə qarşısına ataraq etiraz mövqeyini açıq şəkildə bəyan etdi. Bununla da dahi şəxsiyyət dünyanın diqqət mərkəzində olmaqla bərabər, həm də mərkəzi aparatı və onun əllaməçilərini dərindən sarsıtdı.

Ümummilli liderin cəsarəti və sarsılmaz iradəsi qarşısında tab gətirməyən, mərkəzə xidmət edən manqurtlar bir müddətdən sonra ya ölkədən qaçdılar, ya da iflasa uğrayaraq məğlub oldular. Çünki onların qarşısında, dünyanın məlum siyasət sisteminə adekvat olmayan, özünün şəxsi idrak və zəka arealında yoğurduğu və istismar etdiyi, dərin elmi əsaslara söykənən bənzərsiz siyasi məfkurəsi



ilə bütün siyasi gedişləri mat vəziyyətinə gətirən dahi şəxsiyyət– Heydər Əliyev fenomeni dayanmışdı.

Bütün həyatını, fəaliyyətini, məfkurəsini Azərbaycanın quruculuğuna sərf edən, parlaq əməlləri ilə ulu öndərlik zirvəsinə yüksələn ümummilli liderimiz Heydər Əliyev həmin dövrün siyasi mənzərəsini əvvəlcədən görür, onu öz siyasi təfəkkür sistemində süzgəcdən keçirir, irəlidə baş verəcək hadisələrin və siyasət meydanında gedişatın coğrafi xəritəsinin konturlarını müəyyənləşdirir, tarixi gerçəkliyin yaratdığı fürsəti əldən verməyərək qurduğu dövlətçiliyimizi rəvan yola çıxartmaq üçün qarşısındakı bütün maneələri öz dərin bilik qüdrəti ilə dəf edir və dünyanın diqqətini ölkəmizə yönəldirdi.

Bütün bu əvəzsiz xidmətlərin müəllifi, dərin ağlı ilə gedişatı tənzimləyən və dövlətimizi, eyni zamanda, xalqımızı işıqlı yola çıxaran böyük Heydər Əliyev özündən sonra elə bir yol yaratdı ki, həmin yol, bizə bugünkü fəxarət kürsüsündə bərqərar olmaq xoşbəxtliyini bəxş etdi. Dövlətimizi və xalqımızı nurlu gələcəyə doğru apardı.

1993-cü ilin gərgin situasiyaları, həm xarici qüvvələrin dağıdıcı mövqeyi, həm də daxili çəkişmələrin, vəzifə davası üstündə vətəndaş müharibəsi yaratmaq niyyəti ilə gərdiş edən milli manqurtların yırtıcılıq əməlləri dözülməz həddə çatmışdı. Müdrik xalqımız bu vəziyyətdən çıxmaq üçün xilaskar Heydər Əliyevə üz tutdu və təkidlə milləti bu ağır vəziyyətdən çıxarmaq üçün o vaxtlar blokada şəraitində olan Naxçıvandan Bakıya dəvət etdi. Doğrusunu deməliyik ki, həmin vaxt dövlətin başında dayananlar xilas yolunu Heydər Əliyevdə gördü və respublikamızı düşdüyü vəziyyətdən çıxarmaq üçün başqa yol olmadığını etiraf etmək məcburiyyətində qaldılar.

Ümummilli lider Heydər Əliyev vəziyyətin kritik halda olduğunu, Azərbaycanın parçalanmaq vəziyyətinə çatdırıldığını görərək və həm o vaxtkı ölkə Prezidentinin təlaşlı xahişini, həm də xalqımızın böyük əksəriyyətinin ərk dolu müraciətini nəzərə alaraq, ən əsası isə hələ sovetlər dövründən öz Vətəninə, milli ideologiyaya cani-dildən xidmət edən, milli məsələləri özündə vətəndaşlıq borcu kimi həmişə yüksək tutaraq bu vəziyyətdən çıxmaq üçün, hətta canı bahasına olsa belə, dövlət və xalq naminə Bakıya gəldi. Respublikada baş verən vəziyyəti yaxından araşdırdı, təhlil etdi, qan tökülməsinin qarşısını aldı, müdrik zəkası ilə fırtınanı ram etdi, sakitliyin bərqərar olmasına rəvac verdi.

Əlbəttə ki, bütün bu parlaq təntənə, 1993-cü ilin prezident seçkilərində xalqımızın Heydər Əliyev fenomeninə güvəncinin təməli ilə ərsəyə gələn gerçəklikdir. Bu gerçəklik bizdə, bugünkü "Dəmir yumruğ"un ətrafında sıx birləşməyin, bununla da işıqlı gələcəyimizin əbədiliyini ərsəyə gətirməyin təminat fəlsəfəsini yaratdı. Odur ki, biz 1993-cü ilə başqa nəzərlərlə baxmalıyıq. Bu, xalqımızın və dövlətimizin taleyinin müəyyən olunduğu, qızıl hərflərlə yazılan unudulmaz həqiqətlərin tarixidir. Bu tarix Heydər Əliyev dühasının Azərbaycan dövlətinə və xalqına öz işıqlı zəkası ilə Günəş kimi nur ələdiyi tarixdir. Azərbaycan məhz bu tarixi gerçəkliklə öz parlaq gələcəyini müəyyən edən həqiqətə qovuşmuşdur!

Nə qədər ki, Heydər Əliyev yolu yaşayır, Azərbaycan dövləti və xalqı da həmin nurlu yolun yolçuları olaraq daim firavan həyat ritmi ilə xoşbəxt ömür sürməklə həyatını davam etdirəcək!

Yolumuz rəvan, gələcəyimiz parlaq, Heydər Əliyevin nurlu ideyaları əbədi olsun!

**_İftixar PİRİYEV,_**
**_sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi_**

Xalq qəzeti.- 2021.- 7 oktyabr.- S.7.